# USAID terrorçuları da maliyyələşdirirdi

## Tramp administrasiyası bu qurumu "cinayətkar şəbəkə" adlandırıb

**Ötən ilin fevralında Azərbaycan rəhbərliyi USAID-in fəaliyyətindəki arzuolunmaz məqamları həm təşkilatın, həm də ABŞ rəhbərliyinin diqqətinə çatdırmışdı. Təəssüflər olsun ki, o zaman Bakının narahatlığına ciddi yanaşılmadı. Bunun əksinə olaraq, ölkəmizin bu qətiyyətli qərarı bir çox dairə tərəfindən radikal addım kimi qiymətləndirildi. Üzərindən heç bir il keçmədi ki, Gürcüstan hökuməti eyni narahatlıqları ifadə etdi.**




Nəhayət ki, dünyada məşhur olan Beynəlxalq İnkişaf Agentliyi - USAID-in təhlükəli və dağıdıcı siyasətinin sonu gəldi. Azərbaycana qarşı qərəzli, böhtan xarakterli materialları sifariş edən bu mərkəzi elə ABŞ-nin özü ifşa etdi. Tramp administrasiyası USAID-i "cinayətkar şəbəkə" adlandırdı. Dövlət israfçılığı və korrupsiya ilə mübarizə aparan DOGE qrupuna rəhbərlik edən İlon Maska görə, USAID "qurdlu alma yox, sadəcə qurd topasıdır". O, hətta təşkilatı bioloji silahların hazırlanmasını maliyyələşdirməkdə ittiham edib. İttihamlardan biri də qurumun Əfqanıstanda narkotik məhsulların istehsalının maliyyələşdirməsi ilə bağlıdır.

Kanadalı jurnalist Ketrin Herric "X" sosial şəbəkəsində ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAID) "Əl-Qaidə"nin gələcək lideri Ənvər əl-Avlakinin kollec təhsili üçün tam şəkildə ödədiyi pulun qaiməsinin fotoşəklinə diqqət çəkib. Həmin şəxs ABŞ kəşfiyyat orqanları tərəfindən 2001-ci il sentyabrın 11-də törədilən terror aktlarında, eləcə də 2000-ci illərin ikinci yarısında bir sıra hücumda iştirakda şübhəli bilinirdi. Terrorçu 2011-ci il sentyabrın 30-da Yəməndə ABŞ-nin pilotsuz uçuş aparatının endirdiyi zərbə nəticəsində öldürülüb.

Beynəlxalq İnkişaf Agentliyi ABŞ hüdudlarından kənarda LGBT istehsalatlarını maliyyələşdirir, "Əl-Qaidə" yaraqlılarının yemək pulunu ödəyir, Əfqanıstanda heroin istehsalı üçün istifadə olunan suvarma kanalları, ferma avadanlığı və gübrələrin maliyyələşdirilməsinə yüz milyonlarla dollar xərcləyir. ABŞ Prezidenti Donald Trampın administrasiyası USAID-i vergi ödəyicilərinin vəsaitlərini israf etməkdə də ittiham edib. Ağ Ev həmçinin Amerikadan pul alan bir sıra layihələri də sadalayıb. "Agentlik Serbiyada əmək kollektivlərində bərabərliyin və inklüzivliyin təşviq edilməsinə 1,5 milyon dollar, Qvatemalada cinsiyyətin dəyişdirilməsinə və "LGBT fəallığına" 2 milyon dollar, LGBT mədəniyyətinin təbliğinə, xüsusən də "musiqili" filmin istehsalına təxminən 150 min dollar xərcləyib. Digər xərclərə Suriyadakı "Əl-Qaidə" döyüşçüləri üçün yüz minlərlə yemək, Misirdə turizmi maliyyələşdirmək üçün 6 milyon dollar və Vyetnamda elektrikli avtomobillər üçün 2,5 milyon dollar daxildir", - məlumatda qeyd olunub.

Cozef Bayden administrasiyası dövründə KİV-in sifarişli anti-Azərbaycan materiallar dərc etdikləri bəllidir. Aydın olub ki, bu təşkilat təkcə ABŞ mediasına vəsait yönəltməyib. Araşdırmalar zamanı sensasion sayıla biləcək faktlar ortaya qoyub. Bəlli olur ki, USAID dünya üzrə 707 media, 6200 jurnalist və 279 jurnalistika sahəsində çalışan QHT-ni maliyyələşdirib.

Ortalıqda USAID-in Britaniyada BBC-yə səxavətlə maliyyə yardımı etməsi faktı da var. Araşdırmalar zamanı məlum olub ki, 2023-2024-cü illərdə USAID Britaniya yayımçısının ikinci ən böyük donoru olub və ona 2,613 milyon avro köçürüb.

ABŞ-nin Dövlət İdarəetmə Effektivliyi Departamentinin rəhbəri İlon Mask bildirib ki, artıq "Politico", "The New York Times" və "Associated Press" agentliyini maliyyələşdirmirlər. Onun məlumatına görə, Dövlət Departamenti "Associated Press"dən, Maliyyə Nazirliyi "The New York Times"dan, "Politico"dan imtina edib.

Gürcüstanın Baş naziri İrakli Kobaxidze bildirib ki, USAID, NED və digər qurumlar gürcü xalqına və gürcü dövlətinə qarşı koordinasiyalı şəkildə hərəkət ediblər. Baş nazir yeni administrasiya dövründə ABŞ səfirliyinin gürcü xalqına və Gürcüstan dövlətinə münasibətinin dəyişəcəyinə, səfirlik, USAID, NED və digər müvafiq qurumlar arasında mövcud olan çirkin koordinasiyaya son qoyulacağına ümid etdiyini bildirib.

Rusiya Dövlət Dumasının sədri Vyaçeslav Volodin bildirib ki, nizamnaməsinə görə, USAID iqtisadiyyat, səhiyyə və təhsil layihələrini dəstəkləməli, həmçinin təcili humanitar yardım göstərməlidir. Amma faktiki olaraq, agentlik 100-dən çox ölkədə ofisləri və illik büdcəsi 50-60 milyard dollar olan real kriminal şəbəkəyə çevrilib. Volodinin sözlərinə görə, USAID öz fəaliyyəti dövründə bəzi cinayətlərdə iştirak edib və bunları törədənlər cəzalandırılmalıdır. Spiker vurğulayıb ki, qurum bəzi terror təşkilatlarının sponsoru olub: "USAID tərəfindən terrorçular və yaraqlılar, eləcə də ABŞ və Rusiyada qadağan olunmuş "Əl-Qaidə"yə yüz minlərlə dollar köçürüb. Bundan əlavə, agentlik xaşxaş yetişdirmək və heroin istehsal etmək üçün istifadə olunan avadanlıq və gübrələrə yüz milyonlarla dollar xərcləyib".

Qazaxıstan parlamentinin iclasında Xalq Partiyasından olan deputatlar bu ölkənin ictimai təşkilatlarının xaricdən aldığı yardımlar barədə bütün hesabatların açıqlanmasını tələb ediblər. Deputat Məhərrəm Məhərrəmov USAID-in Qazaxıstanda hansı layihələrə pul ayırdığını araşdırmağa çağırıb. O, müvafiq deputat sorğusunu ədliyyə naziri Erlan Sarsembayevə və milli iqtisadiyyat naziri Serik Jumanqarinə ünvanlayıb. Deputat deyib: "Son günlərdə biz USAID-in fəaliyyəti ilə bağlı daha çox şok effekti yaradan detallar öyrəndik. Ağ Evin rəsmi bəyanatında iddia olunur ki, USAID onilliklər ərzində zərərli layihələrin maliyyələşdirilməsi ilə məşğul olub". Onun sözlərinə görə, 2022-2025-ci illərdə USAID Mərkəzi Asiyada insan hüquqlarının və bərabərliyin gücləndirilməsinə iki milyon dollar ayırıb.

Xalq Partiyasının üzvləri audit yoxlamasının aparılmasını və Qazaxıstanın ictimai xadimlərinin xaricdən maliyyələşməsi ilə bağlı bütün məlumatların ictimaiyyətə açıqlanmasını istəyiblər. Onlar həmçinin Ədliyyə Nazirliyini uşaqları zərərli sponsorluq layihələrindən qorumaq üçün qanun layihəsi hazırlamağa çağırıblar.

Aparılan araşdırmaların hələ hansı biabırçılıqları üzə çıxaracağını indidən demək çətin olsa da, Bayden administrasiyası və Samanta Pauerin rəhbərlik etdiyi dövrün bu təşkilatın fəaliyyət tarixində ən biabırçı dövr olacağına şübhə yeri qalmır.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

Azərbaycan. - 2025.- 11 fevral (№ 30).- S.5.